*"Müəllimlər üçün təlim təqaüd proqramı" 2015 (Kyokensei)*

12 yanvar 2015-ci il
Yaponiyanın Azərbaycan Respublikasındakı Səfirliyi
Mədəniyyət və Məlumat Məsələləri Şöbəsi

**1. Sənədləri yapon dilində hazırlamağa ehtiyac varmı?**

Bir qayda olaraq sənədlər yapondilində və yaxud ingilis dilində hazırlanmalıdır. Başqa dildə hazırlanan sənədlərə notarial qaydada təsdiqlənmiş, ingilis və ya yapon dillərində hazırlanmış tərcümələr əlavə olunmalıdır. Sənədlərin hansı dildə hazırlanması tələbənin qəbul olub və yaxud olmayacağına heç bir aidiyyəti yoxdur, odur ki sənədləri ingilis dilində təqdim etmək mümkündür.

**2. Yaponiyanın istənilən universitetini seçmək mümkündürmü?**

Yalnız "Kurslar haqqında bələdçi"də adları qeyd olunan universitetlərin seçimi mümkündür. Özəl universitetlərin bəzilərində dərslər sentyabr ayında başladığı üçün, sizdən xahiş olunur ki, universitet seçimində diqqətli olasınız.

**3. Bu proqram ilə Yaponiya universitetlərində elmi dərəcə almaq mümkündürmü?**

Bu proqram ilə elmi dərəcə almaq mümkün deyil. Həmin proqram ilə Yaponiya universitetində 1 il təlim kursu keçmək imkanı əldə edə bilərsiniz (yapon dili kursları əlavə olunarsa 1 il yarım müddət). Lakin universitetin daimi tələbəsi qismində təhsili davam etdirmək mümkün deyil. Həmçinin, təlim kursu bitdikdən sonra elmi dərəcə almaq üçün tədqiqat işini davam etdirmək arzusunda olsanız belə, təqaüdün müddətini uzatmaq mümkün olmayacaq.

**4.Mən yapon dilini bilmirəm, həmin proqrama müraciət edə bilərəmmi?**

Yazılı imtahan yapon dili və ingilis dili imtahanından ibarətdir. İmtahanların nəticələri əsas meyar olaraq baxılacaq. Bunun üçün sizdən yapon dilini heç olmazsa ibtidai səviyyədə bilməyiniz tələb olunur. Bir qayda olaraq, Yaponiya universitetlərində təhsil yapon dilində aparılır, odur ki, tədqiqatçının yapon dili biliyi kifayət etmədiyi halda, o, Yaponiyanın Təhsil, Mədəniyyət, İdman, Elm və Texnologiya Nazirliyi tərəfindən universitetlərdə təşkil olunmuş yapon dili kurslarında iştirak etməli olacaq.

**Q5.Yapon dili və yapon ədəbiyyatı fakültəsinin məzunu deyiləm, həmin proqrama müraciət edə bilərəmmi?**

Bu proqram, ibtidai və ya orta təhsil müəssisələrində minimum 5 il təcrübəsi olan müəllimlər üçün nəzərdə tutulmuş təlim proqramıdır və həmin proqrama yapon dili fakütləsinin məzunu olmayan tələbələr də həmçinin müraciət edə bilərlər. Belə ki, universitet müəllimlərinin həmin proqrama müraciəti mümkün deyil.

**6.Hal-hazırda tələbəyəm, bu proqrama müraciət edə bilərəmmi?**

5-ci sualın cavabında qeyd olunduğu kimi, həmin təlim proqramına yalnız minimum 5 il

təcrübəsi olan ibtidai və orta təhsil müəssisələrinin müəllimləri müraciət edə bilər. Tələbələrin müraciəti mümkün deyil.

**7.Təlim kursu nədən ibarətdir?**

Təlim kursunun proqramı universitetdən asılı olaraq fərqlənir, odur ki sizdən diqqətlə “Kurslar haqqında bələdçi”ni oxumağınızı xahiş edirik. Əsas olaraq, proqrama tədris prosesinin idarəedilməsi, tədris metodları, ixtisaslaşdırılmış fənn üzrə tədqiqat və müşahidə edici səfərlər daxildir. Belə ki, müraciət formasında arzu olunan tədqiqat mövzusunu düşünüb rəhbərlik planı hazırlamaq mümkündür.

**8.Zəhmət olmazsa yazılı imtahanın məzmununu açıqlayın.**

Gənc müəllimlər üçün nəzərdə tutulan yazılı imtahan 2 saatlıq yapon dili imtahanından və 1 saatlıq ingilis dili imtahanından ibarətdir. Aşağıda qeyd olunan linkdə Yaponiya dövləti hesabına təhsil alan xarici tələbələr üçün nəzərdə tutulan imtahan suallarının toplusu yerləşdirilib. Gənc müəllimlər üçün təqaüd proqramının imtahan suallarının toplusuna, "Yapon dili və yapon mədəniyyətinin tədqiq edən tələbələr üçün təqaüd proqramının" imtahan toplusuna daxil olan yapon dili imtahanı toplusuna və yaxud bakalavr dərəcəsi üçün təqaüd proqramına daxil olan ingilis dili imtahan toplusuna müraciət etməyinizi məsləhət görərdik.

www.studyjapan.go.jp/jp/toj/toj0308j.html